**UOT 398:801.6**
**https://doi.org/10.59849/2218-4783.2025.2.238**

**AYTƏN CƏFƏROVA**

# SİMVOL ANLAYIŞI VƏ FOLKLOR SİMVOLLARININ SEMANTİKASI
## (Naxçıvan folklor mətnləri əsasında)

*Simvol haqqındakı düşüncələr dövrümüzdə mübahisəli məsələlər sırasındadır. Əgər hansısa hadisə haqqında danışılırsa ki, o hadisə simvolikdir, ona xüsusi məna verilir, eyni zamanda, bu hadisənin effektivliyinə öz-özlüyündə şübhə ilə yanaşılır. Keçmişdə var olan və baş verən əşya və hadisələr bu gün simvollar şəklində mövcuddur və yalnız simvolik şəkildə təqdim olunur. Lakin biz onların kəsb etdiyi semantikanı – məna yükünü onun üst qatının görüntüsündən daha çox anlayırıq. Alt qatdakı məna isə həmin simvol əgər hər hansı icra ortamına daxil olarsa və araşdırıcı nöqteyi-nəzərdən ona yanaşılarsa, aydınlaşa bilər. Simvolluq daşıyan hər hansı əşya və hadisənin sözügedən səviyyəyə çatması onun sakrallıq qazanması ilə ölçülür. Sakrallıq, qədim türkcə də qutsallıq simvolun kəsb etdiyi əsas xarakterdir. "Sakral" sözü (latınca – sacrum) tərcümədə müqəddəs, Tanrının nəzərində olan xoş nəsnə anlamını daşıyır. Folklor mətnləri simvolların ən geniş, əhatəli yerləşmə məkanıdır. Burada simvolların mahiyyəti rahat şəkildə açıqlanır, daha doğrusu, bu mətnlərdə var olan simvollar mətnin mahiyyətinin açıqlanmasında əsas mövqedədir. Düzdür, simvolun əsas məkanlarından biri kimi folklor örnəkləri olduğu deyilir və bunu biz də araşdırma vasitəsilə təsdiq edirik. Bununla yanaşı, simvol həyatın, yaşamın hər mərhələsində vardır.*

**Açar sözlər:** *simvol, qutsal, folklor, örnək, müqəddəs, əşya və hadisə.*

Simvol – canlı olan və sakrallıq daşıyan mif elementidir və ya mifin bir parçasıdır. Simvol, əslində, sirli adanı xatırladır. Mif isə daha geniş anlamdadır, üstəlik də bizim müasir təfəkkürümüzdən çox-çox keçmişdədir. Amma bu, heç də o demək deyildir ki, müasir dövrümüzdə mif yaranmır. Əslində elə simvolik aləmin özü mifin tərkib hissəsidir. Sadəcə bu gün mif müasir insan üçün real olmayan, aktual olmayan səviyyədə saxlanmışdır. Lakin mif bu gün bizim leksikamızda, hətta nitqimizdə də yaşamaqdadır. Biz tez-tez sözün sehri qüvvəsinə inanaraq deyərik: "Lənət şeytana!", "Vurğun təpəndən vursun!", "Səni Hal aparsın!". Bu o deməkdir ki, biz mifin içindəyik. Bu gün mərasimlərimizin icrası zamanı mifin hüdudları daxilində yaşadığımızı sezməsək də, bu, mütləq belədir. Yəni mifin funksiyalarının daşıyan rəmzləşdirilmiş elementlər mərasimlərin əsas atributlarıdır. Hər bir rəmzi elementin dərin mifoloji kökləri vardır. Və bu dərin mifoloji qaynaq da müxtəlif dünya xalqlarında eyni və ya fərqli şəkildə təzahür edir.

"*Elə rəmzləşmiş ifadələr var ki, böyük insan kütləsi (çox hallarda bütün bəşəriyyət) üçün oxşar anlamlarda başa düşülür. Müxtəlif zamanlarda yaransa da və ayrı-ayrı dillərdə tamamilə başqa cür səslənsə də, bir-birindən çox uzaq məkanlarda yaşayan əksər xalqların milli mədəniyyətlərində eyni məna yükünü daşıyır və müxtəlif dünyagörüşlərinin formalaşmasında böyük əhəmiyyət kəsb edir. İlkin çağlarda miflərdə yozulan və magikliklə əlaqələndirilən bir çox varlıqlar, eləcə də hallar inkişafın sonrakı mərhələsində özündə ibtidai görüş formalarının əlamətlərini yaşatmaqda davam etmiş, gerçək anlamı ilə yanaşı rəmzi mənalar da daşımışdır. Onlar bəşər oğlunun kortəbii şüurunun içərisindən keçdiyindən – eyni həyat şəraitində, eyni psixi səviyyədə yaşayan bütün xalqların düşüncəsində bir-birinə uyğun şəkildə başa düşülmüşdür*" [6, s. 103]. Mifin qalıqları, elementləri hesab edilən simvollar xalqların mədəniyyətlərinin həm formalaşmasında, həm təkmilləşməsində, həm də bu mədəniyyətlərin bir-biri ilə yaxınlaşmasında böyük rol oynayır.

Simvol mövcud olduğu xalqın mədəniyyətində önəmli mövqedədir. Və bu mədəniyyətin qədim köklərindən xəbər verir. Əvvəldə də qeyd etdiyimiz kimi, simvol mifin elementləri, parçalarıdır. Məhz mifik təfəkkür sahibi olan xalqın qədimliyindən danışmaq mümkündür. Mifin əsas elementlərindən biri işarələrdir. Bu işarələr rəqəmlər, rənglər, təbii cəhətlər, insanın mənəvi aləmi ilə bağlı olan yuxu kimi məfhumlar və sairədir. İşarələr elmi semiotika adı altında da öyrənilir. Professor

S.Rzasoy oğuz mifologiyasında yazarkən miflə semiotikanın əlaqəsini belə izah edir: "*Mifoloji düşüncə semiotizminin universallığı oğuz mifinin strukturuna semiotik yanaşmanı zərurətə çevirir*" [8, s. 65]. Alim oğuz mifinin strukturunun modelləşməsini semiotikaya söykəndiyini söyləyir.

Müqəddəs kitabların özündə işarələrlə, simvolik şəkildə əsas fikrin izahı müşahidə olunur. Eləcə də islamın müqəddəs kitabı olan Quranda dərin simvolika aləminin mövcudluğu aydın görünməkdədir. Ayə və surələrdə müsəlman əhlinə ünvanlanan fikirlərdə də dərin simvolik məqam vardır.

Avropa simvolistlərindən olan Andrey Belıy hələ keçən əsrin əvvəllərində musiqi ruhunun simvolun mənbəyi olduğunu yazırdı. O deyirdi ki, məhz musiqi ruhun dərinliklərinə yenə və şüurun ən yüksək səviyyəsinə təsir edə bilər [10, s. 9]. Andrey Belıy da simvolu dinin əsas elementlərindən hesab edib və əlavə edib ki, din ardıcıl olaraq inkişaf etdirilən simvollar sistemidir. Lakin dini həqiqətlərin dərk edilməsini səhv yönə istiqamətləndirirlər.

Simvol hətta müvəqqəti var olanda əbədi və həqiqət olanın əksi, təzahürüdür. Dünyanın yaranmasında iştirak edən əsas ünsürlərdən hesab edilən su və torpaq bu gün dərin mənaların məcmusuna çevrilərək simvol kimi formalaşıb. Təmizlik, saflıq simvolu sayılan su dünyanın mövcudluğunda, bəşəriyyətin var olmasında əsasdır. Su ilə torpağın – palçığın qarışması ilk insanın yaranmasını simvolizə edir. "Torpaqdan yaranan torpağa da dönəcəkdir" hikmətli paremioloji vahiddə də ilk insanın məhz torpaqdan yaranması haqqında məlumat aydınlaşır. Odur ki, torpaq da insanın varlığı haqqında ümumiləşmiş bilgilərin məcmusu kimi simvolizə edilir və həm də sakral simvoldur. Ümumiyyətlə, simvol, bütün dərk olunanın, təbii var olan və sonradan yaradılmış etik normaların ən əsas sərhəddidir.

Simvolların etnik mahiyyətini, əvvəldə də qeyd edilən kimi, təbii var olanla sonradan yaradılan simvolların sərhəddini aydınlaşdırmaq üçün mənbə və material olaraq, obyekt kimi folklor örnəkləri daha məqsədəuyğundur. Folklor, xalqın yaratdığı sözlü sənət materialı simvolların ən əsas qaynağıdır. Həm də demək olar ki, simvolların çoxu elə mövcud sözlü yaradıcılıq örnəyi ilə eyni zamanda yaranıb və formalaşmışdır. Bir örnəyin daxilində var olan simvol onun da mahiyyətini, hətta tarixi köklərini belə açmağa, aydınlaşdırmağa şərait yarada bilər.

Simvol haqqında müasir dövrdə mübahisəli fikirlər çoxdur. Simvol həyatın, yaşayışın, demək mümkündür ki, çox mərhələsində mövcuddur. Simvol ədəbiyyatda, poeziyada, dində, psixologiyada, fəlsəfədə, etik və estetik prinsiplər məcmusunda, hətta yeri gəldikdə, tarixi faktlarda da özünü göstərir. Bu baxımdan, demək mümkündür ki, elə bir elm sahəsi yoxdur ki, simvolun təsirindən yayınmış, uzaq qalmış olsun. Simvol görünənin – var olanın içində görünməyəndir. Amma simvolun kəsb etdiyi mənalar tarixi, mədəni faktları da özündə ifadə edə bilir.

*Miladdan öncəki VII əsrdə Yunan fikir aləmi Homerin və Hesiodun mifoloji hekayə aləmi ilə əlaqəsini kəsməyə başladı. İoniyada Miletli Fales sayəsində gerçəkliyin fəaliyyət prinsipləri və nəticədə görünən və görünməyən arasındakı əlaqənin fərqli şəkildə qavranılması məsələsini ifadə edən fəlsəfi diskurs doğuldu. Uzun müddət hər şeyin arxe – vahid fundamental prinsipini axtarmağa yönəlmiş bu yeni təfəkkür formasının yaranması mifologiyadan fəlsəfəyə keçid kimi müəyyən olunurdu. Bu fikir "Yunan möcüzəsi" haqqında məşhur tezislə bağlı idi. Müasir antropologiya bu fikirləri təkzib edərək göstərir ki, düşüncə, elm, yəni məlumat toplamaq və onlar arasında əlaqə yaratmaq bacarığı heç bir halda qərb təfəkkürünün imtiyazı deyildir. Bundan əlavə, antik dövrün mütəfəkkirlərinin əksəriyyəti hələ də mifoloji praktika ilə əlaqəli idi. Beləliklə, məlum olur ki, səbəbsiz mədəniyyət yoxdur, həm də əksinə, mifoloji və simvolik dəstək olmadan heç bir fəlsəfi düşüncə də yoxdur* [11, s. 32].

İnsanları, bəşəriyyəti ali dünya ilə birləşdirən əlaqələrin əksi olan mif bütün bunlarla yanaşı ruh aləmini təsvir etməyə çalışır. Mif ruhlar aləmini həqiqi aləmin təzahürü olaraq ifadə edir, nəticədə mətnləşir. Mif simvolların məcmusudur. Məhz mifdən qaynaq alaraq intişar edən simvollar əvvəlcə kiçik – ilkin janr mətnləri daxilində, sonralar mərasim faktlarında, tədricən isə digər sözlü

yaradıcılıq örnəklərində özlərinə mütləq yer seçərək həmin mətnlərin də birbaşa miflə əlaqəsini gerçəkləşdirmişlər.

Simvol insanın ünsiyyət vasitəsi olan dildə də vardır. Dilin materialı sözdür. Söz, ruhun bədənə təlqin etdiyi düşüncələrin maddiləşmiş nəticəsidir. Söz də özlüyündə simvoldur. Dildə olan paremioloji vahidlər öz növbəsində simvoldur. Paremioloji vahidlər içərisində deyimlərin simvolikliyi daha gözə çarpan dərəcədədir. Məsələn, Naxçıvan ərazilərindən toplanmış bir deyim faktına nəzər salaq: Erkək Pəri və ya Erkək Fatmanisə. Bu deyim faktı kişi işlərini asan şəkildə görə bilən, bəzən kişi kimi qaba, fiziki görünüşcə, yekəpər olan qadınlara aid edilir. Və buradakı əhaliyə bu deyim çox yaxşı tanış və aydındır. Eləcə də “Daş ayna” deyimi. Bu deyim də Naxçıvan ərazilərinə məxsus olaraq dərin simvolika daşımaqdadır. “Daş ayna” – olduqca gözəl, gözəlliyi ilə ətrafdakı insanları heyran edən qadına deyilir. Bu və buna bənzər paremioloji vahidlər vardır ki, onların dərin simvolikası bu mətnlərin elə bir o qədər də dərin mifoloji təfəkkürlə bağlılığını təsdiq edir.

Simvolik anlam daşıyan məfhumlar – anlayışlar qədim mədəniyyətlərdə çox aydın qavranılırdı. Bu gün bəzi həmin simvolik anlam kəsb edən məfhumların, əşyaların kəsb etdiyi mənalar itməkdədir. Bu da təbiidir. Çünki zaman-məkan kontiniumu məsələsi yaşam düzəninin hər məqamına təsir edə bildiyi kimi yaşamın dəyərlərindən olan simvolikaya da öz güclü təsirini göstərmək qabiliyyətinə malikdir. Simvolik məna daşıyan, lakin sonradan mənasını itirən anlayışlar, əşyalarla yanaşı kəsb etdiyi mənanı dəyişənlər də istisna deyildir. Yəni müəyyən bir zaman, hətta məkan daxilində məlum məna daşıyan əşya və hadisə zaman-məkan fərqliliyi içərisində mənasını tamamilə dəyişə bilir.

Müasir günümüzdə simvollar insanlara yol göstərən, istiqamətləndirən işarələr fonunda yaşayır. Onlar insan şüuru tərəfindən dərhal qavranılaraq kəsb etdiyi məna istiqamətində onu hərəkət etməyə yönləndirir. Simvollar idarəçilər – insanlar olmadan öz vəzifələrini yerinə yetirə bilir. Məsələn, işıqforlardakı rənglər yolu keçmək istəyən piyada və sürücünün nə cür hərəkət etməli olduğunu onlara aydın göstərir. Yol boyu hərəkət edən sürücünün yoldakı işarələr – simvollar vasitəsilə düzgün istiqamətlənməsində həmin simvollar əsl açar rolunu icra edir. Burada hər hansı insanın söylədiyi söz yox, məhz işarə – simvol əsasdır. Odur ki, müasir cəmiyyətdə də simvollar da məhz sözlər qədər dərin məna və əhəmiyyət daşıyır. Lakin mənası dəyişilmiş simvollar da çoxdur və onların mənasındakı dəyişikliyə səbəb də məhz xalqlararası inteqrasiya və əlaqələrdir.

Simvolların ən yaxşı qaynaq yeri, öncə də qeyd olunduğu kimi, folklor örnəkləridir. Folklor örnəkləri simvolları qlobal dəyişiklikdən qoruyur, mühafizə edir. Məsələn, sayların özü ən aktiv simvollardır ki, onlar da folklor örnəkləri daxilində özünəməxsus mənalar daşıyır. Bu, mənalar müxtəlif xalqların dünyagörüşü sistemində, təbiidir ki, fərqlənir. Bu baxımdan da xalqlara məxsus folklor örnəkləri daxilində də simvolların kəsb etdiyi məna fərqli olacaqdır. Məsələn, qədim türk dünyası təfəkküründə üç, yeddi, doqquz, on iki, on beş, qırx və s. say sistemlərinin kəsb etdiyi mənalar digər xalqlarda da sayların simvolikası ilə bağlı daşıdığı mənalarla bəzən eynilik təşkil edir, bəzən də tamamilə fərqli semantem kimi çıxış edir. Bu rəqəmlərin – sayların sakrallığı qədim insanın yaşam uğrunda mübarizəsi düşüncəsindən qaynaqlanır. Lakin tədricən mədəniyyətlər ayrıldıqca bu sahədə – simvolik düşüncə sistemində də əsaslı ayrılmalar özünü göstərib.

Azərbaycan xalqının şifahi söz sənətində sayların gözə görünən dərəcədə yeri və rolu vardır. Və bu kontekstdə də üzərində araşdırma aparılan Naxçıvandan toplanmış folklor örnəkləri diqqətçəkəndir. O mənada diqqətçəkəndir ki, Naxçıvan əraziləri folklor mühitinin qorunub, mühafizə olunduğu ən aktiv məkandır. Folklor düçüncəsini də yalnız icra ortamında yaşatmaq mümkündür. Və Naxçıvandan toplanmış folklor örnəklərinin əksəriyyətində dərin simvolika daşıyan elementlər zəngindir. Bunlar, əsasən, sayların, rənglərin, müxtəlif istiqamətlərin: aşağı, yuxarı, yer, göy, sağ, sol və s., ilkin yaradılış stixiyalarının: su, od, torpaq, hava, dəmir, ağac və s. kimi ünsürlərin sakramentallığı fonunda təzahür edir. Bu elementlər də folklor örnəkləri daxilində öz sakramentallıq dərəcəsini qoruya bilir. Bəzi məkan elementlərindən olan ev, qalaça, daxma, qəsr və s. dünya xalq-

ları folklorunda sakral yöndən təqdim olunur. Ümumiyyətlə, qədim mədəniyyətlərdə müqəddəs məkan anlamı var: burada şəhərlər və məbədlər, əsasən, kainatın modeli kimi təqdim olunur. Eyni zamanda, folklor mətnində itmiş, dağıdılmış ev, daxma məhz zəbt olunmuş, işğal nəticəsində dağıdılmış, viran qoyulmuş vətəni simvolizə edir. Tədricən görünməz məkanın – yurdun obrazı mədəni fenomen səviyyəsinə yüksəlir, İlahi hüzur yerinə çevrilir (ocaqlar, pirlər). Eləcə də Naxçıvan folklor örnəkləri daxilində bu məqam müşahidə olunur. Ərazinin folklor aləmində mövcud olan ocaqlar, pirlər, müqəddəs ziyarətgahlarla bağlı olan mətnlərdə məkan simvolikası aydın təzahür edir. Yəni ocaq, pir, ziyarətgah statusu qazanmış məkanlar əvvəllər müxtəlif səbəblərdən dağıdılmış, viran qoyulmuş vətən statuslu məkanların qalıqları kimi mövcud olduqları dövrlərə gələ-gələ dərin simvolika qazanmış, nəticədə sakral mövqedə formalaşaraq bugünkü sakramentallığı ilə modelləşmişdir.

Naxçıvandan toplanmış mətnlər içərisində "Gülüm-gülüm" [2, s. 38] adlı mətndə Ordubad rayonunun Nəsirvaz kəndinin əvvəlki ərazisi, yerləşmə mövqeyi barədə mif mətni daxilində məlumat verilir. Burada kəndin bünövrədən mövcud olan yerləşmə mövqeyi və ərazisi bugünkü "Gülüm-gülüm" piri haqqında xalq yaddaşında qorunan əfsanə mətnində poetikləşir. Yəni mətnin simvolik yönü dağ – xoş əhvallı gəlin – dağ – kefsiz, əhvalı olmayan gəlin – hiddətlənmiş dağ motivi vasitəsilə təqdim olunur. Nə zamanlarsa, geniş ərazini əhatə edən, insanları şad-xürrəm yaşayan kənd baş verən hansısa təbii hadisə nəticəsində dağılır. Gülüm-gülüm dağının ətəklərində yerləşən, torpağı verimli, əhalisi xoşbəxt yaşayan bu kənd Tanrının qəzəbinə gəlir, dağılır. Bu gün isə "Gülüm-gülüm" piri baş verən hadisənin simvolu kimi ziyarətgah mövqeyindədir. Bu, üsul – yön dünya xalqlarında da belədir. Yəni nə zamansa, hansısa səbəbdən (ya təbii, ya da tarixi) dağılmış və ya dağıdılmış məkanlar sonrakı dövrlərdə müqəddəs məkan çərçivəsində salınaraq simvolik yük qazanır, nəticədə isə sakral məkan statusu qazanır.

Folklorşünas-alim prof. Ramazan Qafarlı haqlı olaraq, rəmzi mənalar daşıyan, yəni simvollaşan bir çox varlıqların məhz dünya xalqlarında eyni mənalarının da olduğunu inkar etmir: "*...İlkin çağlarda miflərlə yozulan və magikliklə əlaqələndirilən bir çox varlıqlar, eləcə də hallar inkişafın sonrakı mərhələsində özündə ibtidai görüş formalarının əlamətlərini yaşatmaqda davam etmiş, gerçək anlamı ilə yanaşı rəmzi mənalar da daşımışdır. Onlar bəşər oğlunun kortəbii şüurunun içərisindən keçdiyindən – eyni həyat şəraitində, eyni psixi səviyyədə yaşayan bütün xalqların düşüncəsində bir-birinə uyğun şəkildə başa düşülmüşdür*" [6, s. 102].

Mədəniyyətlər ayrıldıqca xalqların mifoloji dünyagörüşündəki simvol anlayışında da fərqliliklər yaranıb. Və bu fərqliliklər də onların mərasim faktlarında da təzahür edib. Məsələn, xristian aləmində küknar ağacının müqəddəs ağac kimi qəbul edilməsi (İnama görə, İsa peyğəmbər məhz küknar ağacının altında dünya gəlibmiş) məlumdur. Bu baxımdandır ki, hər il miladi təqvimi ilə yeni ilə daxil olarkən küknar ağacı bəzədilir. Küknar ağacının bəzənməsi özlüyündə məlum məsələnin (İsa peyğəmbərin bu ağacın altında dünyaya gəlməsi) simvoludur. Lakin islam aləmində küknar adi ağaclar sırasında olan ağacdır. Lakin ağaca müqəddəs yanaşma türk dünyasında da vardır. Bu, özünü ağaclarla bağlı formalaşmış mif mətnlərində göstərir. Ağacın pir, ziyarətgah səviyyəsində mövcudluğu türk dünyasının folklor düşüncəsində mövcuddur. Naxçıvandan toplanmış mətnlər içərisində də ağac kultu ilə bağlı olan bir çox mifoloji mətnlərdə, eləcə də etnik düşüncədəki yanaşmanın izlərinin təzahürü olan inanclar, sınamalarda ağacın köklü simvolik mövqedə çıxış etdiyini müşahidə edirik. Məsələn, ərazidən toplanmış "Yalqız ağac" [4, s. 68] mətnində ağac dərin sakramentallıq daşımaqla simvollaşdırılıb. Belə ki, qədim adətlərin "təqdim etdiyi" yasaqların insana vurduğu zərbə ağacın təcrid olunmuş bir yerdə bitməsi, budağını qırılanda həmin yerdən qan axması kimi düşüncələr vasitəsilə ümumiləşdirilib və "Yalqız ağac" fonunda simvollaşıb.

Naxçıvan folklor örnəkləri içərisində sayların simvolik şəkildə ən aktiv işləndiyi qaynaq, əsasən, bayatılardır. Bayatılarda sayların dərin simvolik məna daşıması təsadüfi deyildir. Öncə qeyd edək ki, bayatılar folklorun elə bir janrıdır ki, bu örnəklərdə insanın mənəvi aləmindən doğan duyğu və hisslər çox rahat şəkildə poetikləşir. Və onların dildən-dilə ötürülməsi də çox sürətlə baş verir.

Bu ötürülmə zamanı örnəyin formasında müəyyən leksik və fonetik dəyişikliklərin baş verməsi də qaçılmazdır. Ən əsası, məna və ideya qorunur. Bu zaman da ən aktiv yardımçı simvolik məna daşıyan məfhum olur. Və bayatılarda da ən aktiv simvolik rəmzi mənaları saylar və rənglər daşıyır. Naxçıvan folklor mətnləri içərisində aktiv simvolik mövqedə iştirak edən üç sayının dərin semantemi vardır. Üç sayının uğur, qələbə rəmzi mənasında işləndiyini müasir dövrdə də dildə işlədilən "Atalar üçdən deyib" paremioloji vahidinin özü də təsdiqləyir: birincidə, hətta ikincidə alınmayan bir işin üçüncü mərhələdə uğurla nəticələnəcəyi, əsasən, mümkün olur. Ərazinin folklor yaddaşında üç sayının insanda həm də hünər, cəsarət və s. kimi xüsusiyyətlərin təlqini xarakterini aşılaması da inkaredilməzdir. Eləcə də üç sayı xoş xəbər, uğurlu nəticənin simvolu kimi təqdim olunur:

Oturmuşdum səkidə,
Ürəyim səksəkidə.
Yardan üç alma gəldi,
Bir qızıl nəlbəkidə [1, s. 291].

Dərin məna semantemi yüklü saylar ərazinin folklor mətnləri daxilində yetərli qədərdir. Üçün ardınca gələn dörd sayı da burada simvolik məna yükü daşıyıcısıdır. Bu fikri də bir bayatı örnəyi üzərində müşahidə edə bilərik:

Arazım çağlar, axar,
Dörd yanı bağlar axar.
Əlim suyuna çatmaz,
Sinəmi dağlar, axar [1, s. 282].

Burada Arazın bir vətəni ikiyə bölən bir çay kimi tənqid obyektinə çevrilməsi nisbətən yumşaq tərzdə qarşılanır. Bayatının ikinci və üçüncü misralarındakı "Dörd yanı bağlar axar" və "Əlim suyuna çatmaz" hadisələri simvollaşdırılmış məqamlardır. Belə ki, Türkmənçay müqaviləsindən sonra Arazın Azərbaycanı o tay-bu taya bölüb doğmaları bir-birinə həsrət qoyması hadisələri məhz həmin iki misrada ümumiləşdirilərək simvollaşdırılmış mövqedə təqdim olunur. Lakin bayatıdakı ən aktiv simvol "dörd yan" ifadəsidir ki, buradakı dörd sayı sağalmaz yaraları, çarəsiz dərdləri ifadə edir. Dörd tərəfdən əsən səmum yelləri, dörd tərəfdən gələn düşmən gülləsi, düşmənin dörd bir yandan əhatəyə alması kimi ifadələrdə də dörd sayının çarəsizliyi, çıxış yolunun olmaması kimi halları simvollaşdırdığını müşahidə edirik. Baxmayaraq ki, Naxçıvandan toplanılan folklor örnəkləri daxilində dörd sayı, əsasən, qutsal mövqedə simvolluq daşıyır. Lakin istisna hallardan biri kimi, dörd sayı örnək verdiyimiz bayatıda olduğu kimi vətənin ikiyə bölünməsindən doğan çarəsizlik kimi ağır hallar doğuran hadisələri də simvolizə edir.

Eləcə də rənglər folklor örnəkləri daxilində dərin məna daşıyıcısı kimi çıxış edir. Naxçıvandan toplanılmış folklor örnəkləri daxilindəki rəng simvollarının məna semantikası da çox dərin və fərqlidir. Dərindir, ona görə ki, bu örnəklər içərisindəki rəng simvollarının əksəriyyəti müasir dövrdəki rənglərin daşıdığı mənalardan fərqli olaraq qədim türk təfəkküründə rənglərin kəsb etdiyi mənalarla eynilik daşıyır. Paralel olaraq, dünyanın qədim xalqlarının mədəniyyətlərindəki rənglərin daşıdığı dərin anlamlarla da bu ərazinin folklor örnəklərinin kəsb etdiyi mənalarda bənzərliklər vardır. Məsələn ağ, qara və qırmızı rənglərin Naxçıvandan toplanmış folklor örnəkləri daxilində daşıdığı mənalar məhz qədim türkün təfəkküründən qaynaqlanır. Ağ rəng qədim türk dünyasında, əsasən, uğur, qələbə rəmzi daşıyır. Eləcə də Naxçıvan folklor örnəklərində ağ rəngin uğur semantemi izlənilir. Qırmızı rəng sözügedən ərazinin folklor dünyasında mübarizə düşüncəsini, eləcə də qoruyucu funksiya daşıyır. Bu, qədim türk dünyagörüşündə də belədir. Və qara rəngin birincilik, başçılıq semantemi də qədim türk dünyagörüşünün məhsuludur.

Bütün bunlar saylar kimi, rənglərin də folklor örnəkləri daxilində var olmaqla daşıdığı dərin simvolikanın qədim köklərdən qaynaqlandığını sübut edir.

Simvollar sözlərlə qaynayıb-qarışdığında daşıdığı mənaları daha da aydınlaşır, belə olan halda onlar sözlərin təkbaşına ifadə etdiyi məna sərhədlərini də aşa bilirlər. Naxçıvan folklor örnəkləri

içərisində islam dini ilə qaynayıb-qarışmış say simvolları məhz bu dinə məxsus olan anlam və ifadələrlə yanaşı köklü bir ritualın varlığından xəbər verir. Eləcə də say sintez şəklində işləndiyi dini ifadə ilə birgə əxlaqi dəyələrin aşılanmasına da xidmət edir. Əraziyə məxsus bir örnəkdə bu fikir təsdiqlənir: "*Bir düyüdə **yeddi** qulfallahı var. Düyünü yerə salmax günahdı. Ehsan düyüdəndi. Cənabi Fatimə düyü arıtdıyırmış. Bir düşüp dəmirin küfləsinə. Onnan ötrü küfləni sökübdü ki, düyü düşüb ora, onu oradan götürsün*" [9, s. 127]. Mətndəki islama məxsus müqəddəs "qulfallahı" sözünün təyinedicisi kimi işlənən yeddi sayı, haqqında bəhs edilən hadisənin sakrallığını özündə elə mətnin əvvəlindən etibarən ifadə edir. Mətnə islam dini adlarının, eləcə də məfhumlarının əlavəsi sonrakı dövrlərə məxsusdur. Yeddi dənə düyü, yeddi buğda, yeddi cür dənli bitkinin sakral mövqedə iştirakı türklərin islamaqədərki inanc sistemində özünə yer alan faktlardır.

Bütün bunlarla yanaşı, folklor mətnlərində ilkin mifik simvollar olan aşağı-yuxarı, yer-göy, eləcə də yaxşı-pis, xeyir-şər, qaranlıq-işıq, isti-soyuq, acı-şirin, ilkin stixiyalarla bağlı olan su, od, torpaq, hava, daş, dəmir və s. kimi məfhumlar da simvollar aləminin elementləridir.

Naxçıvan folklor mətnləri içərisində zaman və məkan simvollarının da dərin semantika daşıdığı ərazidən toplanılmış mətnlər üzərində aparılan araşdırma zamanı təsdiq olunur.

## ƏDƏBİYYAT

1. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru. Bakı: Sabah, 1994, 388 s.
2. Azərbaycan folklor antologiyası. Naxçıvan folkloru. II c., Naxçıvan: Əcəmi, 2011, 496 s.
3. Azərbaycan nağılları. Naxçıvan. I c., Bakı: Nurlan, 2005, 296 s.
4. Azərbaycan folkloru antologiyası. XXIII say: Naxçıvan örnəkləri. II c., Bakı: 2012, Elm və təhsil, 332 s.
5. El sözü, yurd yaddaşı: Folklor toplusu. Bakı: Elm, 2010, 168 s.
6. Qafarlı R. Mifologiya. Mifogenez: rekonstruksiya, struktur, poetika: 6 cilddə. I c., Bakı: Elm və təhsil, 2015, 454 s.
7. Mənbə verilməyənlər müəllifin şəxsi arxivindəndir.
8. Rzasoy S. Oğuz mifologiyası. Bakı: Nurlan, 2009, 363 s.
9. Şərur folklor örnəkləri. I kitab, Bakı: Elm və təhsil, 2016, 348 s.
10. Энциклопедия. Символы, Знаки, Эмблемы. Москва: Астрель. АСТ, 2004, 230 с.
11. Петров А.М. Символика цветообозначений в русских духовных стихах // Филологические науки, 2011, № 5, с. 25-35.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: ceferli_ayten@mail.ru***

**Aytan Jafarova**

## THE CONCEPT OF SYMBOL AND THE SEMANTICS OF FOLKLORE SYMBOLS
## (based on Nakhchivan folklore texts)

Thoughts about symbols are among the controversial issues in our time. If we discuss a symbolic event, it is given a special meaning, but at the same time, the effectiveness of this event is questioned in itself. Objects and events that existed and occurred in the past exist today in the form of symbols and are presented only symbolically. However, we understand the semantics they acquire – the meaning load more than the appearance of its upper layer. The meaning in the lower layer can be clarified if that symbol enters any performance environment and is approached from an investigative perspective. The achievement of the aforementioned level of any object or event

carrying symbolism is completed by its acquisition of sacredness. Sacredness, or in ancient Turkic, sanctity, is the main characteristic acquired by a symbol. The word “sacral” (Latin – sacrum) in translation means a sacred, pleasant object in the eyes of God. Folklore texts are the most extensive, comprehensive place of placement of symbols. Here the essence of symbols is conveniently explained, or rather, the symbols present in these texts are in a key position in explaining the essence of the text. True, it is said that folklore examples are one of the main places of symbols, and we also confirm this through research. At the same time, symbols are present in every stage of life, in every stage of life.

**Keywords:** *symbol, sacred, folklore, example, sacral, object and event.*

**Айтен Джафарова**

## КОНЦЕПЦИЯ СИМВОЛА И СЕМАНТИКА СИМВОЛОВ ФОЛЬКЛОРА
### (на основе нахчыванских фольклорных текстов)

Размышления о символах являются одной из самых спорных тем нашего времени. Если событие называется символическим, ему придается особое значение, но в то же время ставится под сомнение эффективность самого этого события. Объекты и события, которые существовали и происходили в прошлом, существуют сегодня в форме символов и представлены только символически. Но мы понимаем семантику, которую они приобретают, – значение, которое они несут, – а не только внешний вид их поверхностного слоя. Скрытый смысл можно прояснить, если включить этот символ в некоторую среду исполнения и рассмотреть его с исследовательской точки зрения. Любой символический объект или событие, достигающие этого уровня, знаменуются приобретением им сакральности. Сакральность, или по-древнетюркски – святость, является главной характеристикой символа. Слово «сакральный» (лат. sacrum) переводится как нечто святое, угодное в глазах Бога. Наиболее обширным и всеобъемлющим источником символов являются фольклорные тексты. Здесь суть символов объясняется простым языком, точнее, символы, присутствующие в этих текстах, играют ключевую роль в объяснении сути текста. Действительно, считается, что в качестве одного из основных мест расположения символа используются фольклорные примеры, и мы подтверждаем это посредством исследований. Однако символы присутствуют на каждом этапе жизни.

**Ключевые слова:** *символ, священный, фольклор, образец, сакральный, объект и событие.*

*(Akademik Muxtar İmanov tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 08.07.2025**
**Son variant 30.07.2025**